*“Metafizika” Journal*
***2023, vol 6, issue 2, serial 22, pp.83-95***

**UOT:** 021.93/94
**KBT:** 78.342
**MJ №** 172

# Kitabxana işində innovasiyalar: tipologiyası, növ təsnifatı və gələcək perspektivləri

**Nərminə Abdullayeva***

**Abstrakt.** Hazırda heç bir təşkilat öz fəaliyyətinin müxtəlif aspektlərdən davamlı təkmilləşdirmədən inkişaf edə bilmir: yeni xidmətlərin və ya məhsulların təmin edilməsi, innovativ texnologiyaların tətbiqi, müəssisənin və kadrların idarə edilməsində müasir menecment üsullarından istifadə və s. İnnovasiyalar - inkişafın zəruri elementidir. Onlar olmadan kitabxanaların bazarda öz mövqeyini gücləndirmək, rəqabətqabiliyyətli xidmətlər təqdim edə bilmək, sosial əhəmiyyətli təşkilat kimi fəaliyyət göstərməsi mümkün deyil. Bu məqalədə kitabxana innovasiyalarının tipologiyası və onların xarakterik xüsusiyyətlərinin təsnifat təhlili, kitabxanaların innovasiya fəaliyyətinin təsir göstərən amillər və s. məsələlərə baxılmışdır.

**Açar sözlər:** kitabxana innovasiyalarının növləri və tipləri, təsnifat analizi, kitabxananın innovasiya fəaliyyətinə təsir göstərən amillər

## 1.Giriş

İnnovasiya kitabxananın fəaliyyətində müsbətə doğru olan dəyişikliklərin nəticəsidir. Bu dəyişikliklər özünü onda göstərir ki, elmi ideya və ya texniki ixtira təcrübədə istifadə mərhələsinə qədər gətirilib çıxarılır. Müəssisənin inkişafına təsir göstərən iqtisadi səmərə verməyə başlayır. Görünür ki, elə buna görə də elmi nəşrlərin müəllifləri, innovativ menecment dərsliklərinin və rəsmi sənədlərin tərtibçiləri “innovasiya” anlayışını müəyyən edərkən “obyekt” yanaşmasını əldə rəhbər tuturlar. İnnovasiyaların terminoloji sistemində “yenilik” (новшество) anlayışı xüsusi yer tutur. Belə hesab olunur ki, yeniliyin mahiyyətinin təhlili innovasiya proseslərinin ardıcıllığını və həyata keçirilməsi xüsusiyyətlərini dərk etməyə imkan verir.

* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı,
UNEC, KIM 3 saylı kitabxananın müdiri; Bakı, Azərbaycan
E-mail: abdullaevanarmina@gmail.com
https://orcid.org/0000-0001-5191-0870

**Məqaləyə istinad:** Abdullayeva, N. [2023] Kitabxana işində innovasiyalar: tipologiyası, növ təsnifatı və gələcək perspektivləri. *“Metafizika” jurnalı. 6(2),* səh. 83-95.

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 01.05.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 02.06.2023*
*Çapa qəbul edilmişdir: 06.06.2023*

İnnovasiya - kitabxanada mövcud olan məhsul və xidmətlərin, onun texnologiyasının, xidmətin forma və metodlarının yenilənməsi, digər kitabxanalarla rəqabətliliyin artmasıdır.

Yeni ideyanın yaranmasından onun təcrübədə reallaşdırılmasına qədər olan innovasiyaların həyata keçirilmə dövriyyəsi innovativ fəaliyyət adlanır. [6] O, ümumilikdə innovasiyanın yaradılmasına gətirib çıxaran kompleks elmi, texnoloji, təşkilati və kommersiya tədbirlərini əhatə edir. İnnovasiya fəaliyyəti dedikdə, ictimai təcrübədə innovasiyanın yaradılması və həyata keçirilməsini tam şəkildə təmin edən yüksəkixtisaslı və yeni texnologiyalarla işi mənimsəmiş mütəxəssislərdən ibarət kollektivin fəaliyyət növü başa düşülür. İnnovativ fəaliyyətin məqsədi yekunlaşdırılmış elmi tədqiqat və ixtiraların nəticələrinin ehtiyac duyulan yeni və ya təkmilləşdirilmiş məhsula (əmtəə, xidmət) çevrilməsini təmin etməkdir. İnnovasiya fəaliyyətinin nəticələrinin təhlili və ümumiləşdirilməsinin öyrənilməsinin vacibliyi bir sıra elmi nəşrlərdə vurğulanmışdır.

**2.Elmi ədəbiyyatda kitabxana innovasiyaları**

Ümumiyyətlə kitabxana innovasiyaları məsələlərinə rus mütəxəssislərin marağı XX əsrin 80-ci illərinin sonlarında artmağa başlamış və bu problem əsasən kitabxanaların metodik işinin təkmilləşdirilməsilə ilə əlaqələndirilirdi. Rusiya kitabxanalarının innovasiya fəaliyyətinə dair, yeniliklərin vəziyyətini, onların inkişaf problemləri və perspektivlərini özündə əks etdirən elmi işlər çoxluq təşkil edirdi. Rusiyada bu sahədə əsas tədqiqatlar Martin Y.S., Tolkanyuk N.A. və Çuprina N.T. kimi alimlərə aiddir. Bu problemə müxtəlif illərdə S.A.Basov, A.N.Vaneyev, N.S.Kartaşov, S.Q.Matlina, E.Y.Kaçanova, E.N.Qusyeva və digərləri müraciət etmişlər.

Rus kitabxanaşünası E.Y.Kaçanova innovasiyaların növlərini təsnifat təhlili əsasında müəyyənləşdirməyi irəli sürmüşdür [5]. Təsnifat müxtəlif əsaslara görə aparılır, bu da obyektləri müxtəlif cəhətlərdən xarakterizə edir. Buna görə də bütün vacib əsasların tapılması onların mövcud olan bütün xassələrini və digər obyektlərlə münasibətlərini müəyyən etmək deməkdir. Hər bir müəssisənin innovativ fəaliyyətinin təmin edilməsi, innovasiyaların həyata keçirilməsi üçün ilk növbədə lazımı şəraitin yaradılması, innovativ potensialın qiymətləndirilməsi və innovativ dəyişikliklərin səmərəliliyinin müəyyən olunması tələb olunur.

Kitabxana innovasiya fəaliyyətinin mahiyyəti və məzmunu müasir mütəxəssislər tərəfindən birmənalı başa düşülmür. Kitabxanaşünaslıq üzrə elmi nəşrlərin müəllifləri bu məsələyə müxtəlif, bəzən isə ziddiyyətli nöqteyi - nəzərdən yanaşırlar.

Müasir şəraitdə heç bir müəssisə və təşkilat öz fəaliyyətinin müxtəlif tərəflərdən daim təkmilləşdirmədən inkişaf edə bilməz: yeni xidmət və ya məhsulların təqdim olunması, yeni texnologiyadan istifadə olunması, fəaliyyətin və işçi heyətinin idarəolunması metodlarının yenilənməsi və s. İnnovasiyalar - inkişafın vacib elementidir: onlarsız kitabxanaların sosial əhəmiyyətli müəssisə kimi qalması, rəqabətə davamlı xidmətlər göstərməsi, bazar iqtisadiyyatı şəraitində öz mövqelərini möhkəmləndirməsi mümkün deyil. Rus alimi N.A.Tolkanyuka görə innovasiyalar əsasən kitabxana fəaliyyətinin yaxşılaşdırlması, oxucuların sorğularına və informasiya tələbatına uyğun informasiya xidmətinin sürətli həyata keçirilməsi yönündə edilən dəyişikliklərdir. İnnovasiyalar kitabxanaçılıq-informasiya elmləri nöqteyi-nəzərindən kitabxana işinin (elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə) əhatə etdiyi bütün sahələrin inkişafının əsas amilidir demək olar [8]. Keyfiyyət dəyişiklikləri kitabxana işi fəaliyyətinə təsir göstərən mühüm amil sayıldığından, belə dəyişikliklər zamanı bütün kitabxana proseslərinin (ən sadəsindən mürəkkəb kitabxana proseslərinədək) təkmilləşdirilməsi nəzərdə tutulur. Belə dəyişikliklərin məqsədi keyfiyyətin artırılması və əhaliyə göstərilən xidmətlərin nomenklaturasının genişləndirilməsidir. Nəhayət, kitabxana innovasiyalarının mahiyyətini səciyyələndirən daha bir mövqe - onlara kitabxana əməkdaşlarının yaradıcılıq fəaliyyətinin inkişaf vasitəsi kimi baxılmasıdır.

Kitabxana işində uğurlu innovasiya fəaliyyətinin 3 əsas şərti vardır: [3]

- İnnovasiya fəaliyyəti geniş biliklər, bacarıq və uyğunlaşmaq qabiliyyəti tələb edən işdir. Belə ki, kitabxana innovasiyalarının icraçıları çalışqan, inadkar və məqsədyönlü olmalıdırlar. Qəbul olunan qərarların məsuliyyəti öz gücünü qiymətləndirməyi tələb edir.
- Uğur qazanmaq üçün yenilikçilər öz enerji və bacarıqlarına arxalanmalıdırlar. Bütün bu keyfiyyətlər olmadan innovasiyaları tətbiq etmək mümkünsüzdür.
- Yeniliklər insanın fəaliyyət prosesinə təsir etməklə cəmiyyətə təsir göstərir.

## 3.Kitabxana innovasiyalarının növ təsnifatı

Kitabxana innovasiyaları bir sıra cəhətlərinə görə müəyyən tiplərə bölünür. Bu bölgü Rus kitabxanaşünas alimi, pedaqogika elmləri doktoru Kaçanova E.Y.-nun “Kitabxanaların innovasiya fəaliyyətinin öyrənilməsi və idarəedilməsində təsnifat analizi” adlı məqaləsində [6] aşağıdakı kimi verilmişdir:

1. **Məzmun əlamətinə görə:**

- Məhsul innovasiyaları - Kitabxana-biblioqrafiya məhsullarının, yeni xidmətlərin yaradılması və ya mövcud məhsul və xidmətlərin təkmilləşdirilməsi. Bu innovasiyalar yenilikləri tətbiq edən istifadəçilərə, cəmiyyətə və əməkdaşlara yönəlmişdir.
- Texnoloji innovasiyalar - yeni texnologiyaların yaradılması, texnoloji proseslərin təkmilləşdirilməsi, yeni texniki vasitələrin istifadəsi. Bu innovasiyalar yenilikləri həyata keçirən kitabxana əməkdaşlarına yönəlmişdir.
- İdarəetmə yenilikləri (innovasiyaları) - Kitabxananın struktur quruluşunun yenidən təşkilinə, idarəetmə metodlarının dəyişilməsinə istiqamətlənir. Kitabxana əməkdaşları, peşəkar ictimaiyyət üçün nəzərdə tutulur.

**2. Yenilik əlamətinə görə**

Radikal dəyişikliklərin səbəb olduğu innovasiyalar:

- Ayrı-ayrılıqda və bütün kitabxana proseslərinin yerinə yetirilməsini təmin edən avtomatlaşdırılmış sistemlərin tətbiqi;
- Avtomatlaşdırılmış sistemlərdə yeni texnologiyalardan isti-fadə;
- Qanunvericilikdə kitabxana fəaliyyətinə köklü təsir göstərə biləcək dəyişikliklərin edilməsi;
- Sosial dəyişikliklər (məs., əhalinin sayında, tərkibində və yerləşdirilməsində olan dəyişikliklər;
- Yeni xidmət növlərinin tətbiqi (proqram məhsullarının evə verilməsi, əhalinin müəyyən qruplarına səyyar xidmətlərin göstərilməsi)
- Maliyyələşmədə dəyişikliklər
- Yenidən təşkil
- Yeni ünvana köçmə
- Yeni binanın tikilməsi
- Forma dəyişikliyi - kitabxananın çap məhsullarının forma və ölçüsünün dəyişdirilməsi, hər hansı bir xidmətin genişlənməsi

Müasir rus kitabxanaşünaslıq ədəbiyyatında innovasiyaların kitabxana yeniliklərinin nəticəsi kimi təsnifləşdirilməsinin işlənib hazırlanması sahəsində müəyyən cəhdlər olmuşdur. Buna əsas olaraq innovasiyaların xarakterik xüsusiyyətlərinin müxtəlif aspektləri və əlamətləri göstərilmişdir.

İnnovasiyaların səciyyəvi aspektləri və onlara xas əlamətlərə nəzər yetirək:

1. Dəyişikliklərin mahiyyəti və məqsədinə görə: Məzmun - hədəf (məhsul); Texniki - texnoloji; Təşkilati - idarəetmə; Sosial - iqtisadi, Kompleks

2. Dəyişikliklərin obyektinə görə: Yeni xidmətlərin, kitabxana-biblioqrafiya məhsullarının yaradılması, və ya mövcud olanların

təkmilləşdirilməsi; Yeni texnologiyaların yaradılması, texnoloji proseslərin təkmilləşdirilməsi, yeni texniki vasitələrin istifadəsi; Kitabxananın strukturunun yenidən təşkili; rəhbərlik metodlarında dəyişiklik

3. İnnovasiyaların yaradılması formasına görə: ekstrapolyasiya metodu (hazır nümunələrin üzünün köçürülməsi); interpretasiya (məntiqi mənimsəmə)

4. Yenilik səviyyəsinə görə: radikal; dəyişdirici

5. Dəyişikliklərin xarakterinin reallığına görə: real dəyişikliklər; xəyali innovasiyalar

6. İnnovasiyaların həyata keçirilməsi miqyasına görə: fundamental; yerli (lokal)

İnnovasiyaların göstərilən bütün əlamətlərinin kitabxanaçılıq sahəsinin xüsusiyyətləri nəzərə alınmaqla uyğunlaşdırılması və yenidən təşkili kitabxana innovasiyalarının yeni, ancaq coxaspektli təsnifatını yaratmağa imkan verir.

1. Yenilik səviyyəsinə görə: 1.1.radikal yeniliklər; 1.2. dəyişdirici yeniliklər;

2. Kitabxana işində yerinə görə:

2.1. kitabxananın istehsal prosesinin "girişində" olan innovasiyalar (kitabxanın kitabxana-biblioqrafiya və informasiya resurslarının rəqabət qabiliyyətinin təminatı, məhsul və xidmətlərin istehsalı üçün istifadə olunan proqram və avadanlıq təminatı, kadr və sənəd təminatı.

2.2. kitabxanadan kənar innovasiyalar (hasil olunan kitabxana məhsul və xidmətlərinin rəqabət qabiliyətini təmin edən yüksək keyfiyyətli xidmət)

2.3. kitabxananın sistem quruluşu innovasiyaları: idarəetmə, texnoloji, istehsalat (onun bazar iqtisadiyyatı şəraitində səmərəli fəaliyyətini təmin edən)

3.Dəyişikliklərin obyektinə görə:

3.1. Kitabxana məhsul və xidmətləri

3.2. İstehsal vasitələri (sənəd axını, kitabxana resursları)

3.3. Texnoloji proseslər

3.4. Sosial sahə (peşə səriştəsinin inkişafı və əməkdaşların davranışında dəyişikliklər)

3.5. Təşkilati inkişaf (kitabxananın idarə olunması)

4. Dəyişikliklərin məqsədinə görə:

4.1.Kitabxana məhsul və xidmətlərinin istehsalının səmərəliliyini təmin edir (prosesi təkmilləşdirir).

4.2. İstifadəçilərə xidmətin rahatlığını və yüksək keyfiyyətli olmasını təmin edir.

4.3. Kitabxananın imkanlarını genişləndirir, yeni imkankar açır

4.4. Kitabxananın idarəolunmasının səmərəliliyini təmin edir.

4.5. İşçi heyətin idarə olunmasının səmərəliliyini təmin edir, müəssisədaxili ab-havanı normallaşdırır, kitabxananın təşkilat mədəniyyətini möhkəmləndirir.

4.6. Əməkdaşların peşə səriştəsinin və innovativ aktivliyinin artırılmasına kömək edir, kadr ehtiyatlarının inkişafını stimul-laşdırır.

4.7. Əməkdaşların iş şəraitinin səmərəliliyini təmin edir.

5. Təşəbbüsün mənbəyinə görə:

5.1. Birbaşa sosial sifariş (dəyişikliklər ictimai tələbata və yuxarı struktur, ictimai təşkilatların tövsiyyələrinə əsaslanır).

5.2. İstehsal tələbatı (kitabxanada innovasiya vəziyyətinin diqtə etdiyi).

5.3. Elmi-tədqiqatların və marketinq tədqiqatlarının nəticələri nəzərə alınmaqla inkişafın perspektiv tələbləri

6. Sələflərinə münasibətə görə:

6.1. Əvəzedici (köhnəlmiş texniki vasitələrin tam çıxarılması)

6.2. Ləğvedici (hər hansı bir əməliyyatın, xidmətin və ya məhsulun yerinə yetirilməsinin yenisi ilə əvəz edilmədən ləğv olunması)

6.3. Qaytarılma (əvvəlkilərin geri qaytarılması)

6.4. Meydana çıxaran (eyni funksiyaya malik olmayan yeni vasitələrin yaradılması)

6.5. Retroistifadə (əvvəllər istifadə olunan material, proses və avadanlıqların müasir səviyyədə yenidən istifadəsi)

6.6. Mövcud olanları tamamlayan.

7. Tətbiq (istifadə) dairəsinə görə:

7.1. xırda təkmilləşdirmələr

7.2. Sistemli (ümumi sistem nəticəyə istiqamətlənən)

8. İnnovasiyanın tətbiqinin sosial-psixoloji şərtlərinə görə:

8.1. İnnovasiya fəaliyyətinin bütün iştirakçılarından fikir ümumiliyi, əlverişli əlaqələr qurmağı tələb edir.

8.2. Layihə icraçıları olan kadrların müəyyən əlavə hazırlıq keçməsini və ixtisaslaşmasını tələb edir.

8.3. Yeniliyin təşkilatçısının peşəkarlığından asılıdır. (layihə rəhbərinin xüsusi hazırlıq keçməsini tələb edir.)

8.4. İşçi heyətə xüsusi hazırlıq keçmədən tətbiq edilir.

9. İnnovativ təkliflərin bazarda yenilik dərəcəsinə görə:

9.1. elm sahəsində yenilik- dünyada

9.2.elm sahəsində yenilik-ölkədə

9.3.elm sahəsində yenilik- regionda

9.4. elm sahəsində yenilik-təşkilatda

10.Tamamlanma səviyyəsinə görə:

10.1.Tamamlanmış

10.2.Tamamlanmamış

11. Yeniliyin yayılması miqyası və kommersiyalaşdırılmasına görə:

11.1.Kitabxana daxilində tətbiq olunmaq üçün

11.2.Peşəkar ictimaiyyətdə yayılması və kitabxanada “ideya bankı”nın toplanması

11.3.Satış üçün kommersiyalaşdırma

11.3.1.Kitabxana-informasiya strukturlarına

11.3.2.Qeyri-profildən olan təşkilatlara

Bundan başqa, kitabxana fəaliyyətinin innovasiyalar, yeniliklər sayəsində necə dəyişildiyini müəyyən etmək üçün aşağıda dəyişikliklərin göstəricilərinə nümunələr müəyyən ardıcıllıqla verilmişdir. Beləliklə, demək olar ki, təsnifat analizi innovasiya fəaliyyətini tədqiq etmək üçün ən effektiv vasitədir. O, həm elmi nəşrlərin öyrənilməsi zamanı əldə olunan məlumatların işlənməsi və nizamlanmasında, həm də kitabxana işçilərinin sorğusu və onların peşə fəaliyyətinin müşahidə edilməsində mühüm rol oynayır.

Kitabxana innovasiyalarının təsnifat analizi həm də dəyişikliklər prosesinin yerinə yetirilməsinin özünü nizamlamasına imkan verir. Bunun əsasında innovasiya fəaliyyətinin əsas mərhələlərinə belə bir nümunə göstərmək olar:

1. Dəyişikliklərə olan ehtiyacın dərk edilməsi və arzu olunan yeniliyin obrazının, lazımi dəyişikliklərin məqsəd və vəzifələrinin formalaşdırılması.

2. Yeniliklər bazarının təhlili, istifadə üçün yararlı hazır innovativ həllərin axtarışı və seçilməsi, qiymətləndirilməsi və mümkün olan şərtlərin, adaptasiya prosedurlarının ekspertizası, tətbiq layihəsinin işlənib hazırlanması.

3. İnnovativ təşkilata yeniliyin işlənib hazırlanması üçün sifariş verilməsi və ya innovativ layihələndirmə metodları əsasında özünəməxsus innovativ ideyanın müstəqil işlənib hazırlanması.

4. Yeniliyin aprobasiyası və onun təcrübədən keçirilməsi, yayılma imkanlarının qiymətləndirilməsi və sosial sahədə (peşəkar ictimaiyyətdə) kommersiyalaşdırılması; istehsalata tətbiqinin metodiki və layihə təminatı proqramının işlənib hazırlanması

5. İnnovasiyanın istifadəsi (mənimsənilməsi), onun peşəkar ictimaiyyətdə yüksəlməsi, mövcud şəraitlə uzlaşması, nəhayət istifadəsinə xitam verilməsi və yeni innovativ tələblərin ortaya çıxması.

Beləliklə də, təsnifat innovativ fəaliyyətin idarə olunması və sənədləşdirilməsinin təhlili və anlaşılması üçün, innovativ kommunikasiya sisteminin qurulması sahəsində ən effektiv vasitə kimi çıxış edir.

Bundan başqa kitabxana işində innovasiyalar öz obyektlərinə və dəyişiklik göstəricilərinə görə də təsnifləşdirilir: [5]

1. Kitabxananın xidmət və məhsulları:

-Sahələrarası şaxələnmədən istifadə əsasında kitabxanın xidmət və məhsul çeşidlərinin genişləndirilməsi, kitabxana sahəsi üçün ənənəvi olmayan xidmət növlərinin işlənib hazırlanması (istifadəçilərin təklifi, kitabxanaçıların təşəbbüsü, marketinq planı əsasında)

-Xidmətin fərqləndirilməsi əsasında kitabxananın xidmət və məhsul çeşidlərinin formalaşdırılması (yeni potensial istifadəçi kateqoriyasının müəyyən edilməsi)

-Digər kitabxanaların iş təcrübəsindən yeni məhsul və xidmətlərin götürülməsi (qabaqcıl kitabxana təcrübəsinin tətbiqi)

-İxtisaslaşmanın müxtəlif növlərindən istifadə (sahəvi, janr, funksional)

-Sahəvi şaxələnmənin müxtəlif növlərindən istifadə: Horizontal və konsentrik

2. Kitabxananın istehsal prosesinin vasitələri:

-İnformasiyanın axtarışı, işlənməsi və təqdim olunması və xidmət prosesinin təkmilləşdirilməsi üçün yeni texniki vasitələrin tətbiqi hesabına kitabxananın resurs bazasının genişləndirilməsi

-İş prosesinə informasiya daşıyıcılarının yeni növlərinin cəlb olunması hesabına resurs bazasında struktur dəyişikliklər

-Fondların mühafızəsi və kataloqlaşdırma, o cümlədən müəs-sisənin digər daxili proseslərinin təkmilləşdirilməsi üçün informasiyanın (sənədlərin) uçot-qeydi, işlənməsi və nizamlanmasının yeni avtomatlaşdırılmış kitabxana-biblioqrafiya vasitələrinin tətbiqi

-Kitabxana proseslərinin mexanikləşdirilməsi vasitələrinin tətbiqi

3. Texnoloji proseslər:

-Xidmətdə yeni texnoloji üsul və metodların istifadəsi, kitabxana xidmətləri və məhsullarına rahat əlyetərliliyinin təminatı (oxucuların uçot-qeyd üsulları, stasionar və qeyri-stasionar xidmət, tələbatların öyrənilməsi, müxtəlif xidmət növlərinin təklif olunması, müxtəlif məqsədli və oxucu təyinatlı kitabxana proqramlarının təşkili

-İnformasiya mühitinin (oxucuların fondda, məlumat-axtarış aparatında, kitabxana binasında yönləndirilməsinin informasiya vasitələri) təşkilinin, komplektləşdirmənin, sənəd kolleksiyalarının təşkili və mühafizəsinin və s. yeni (və ya digər kitabxanaların iş təcrübəsindən

götürülmüş) üsul və metodlarının işlənib hazırlanması, uyğunlaşdırılması və tətbiqi;

- Komplektləşdirmə, fondun işlənməsi və mühafizəsi kimi (fondun uçot-qeydi, mühafizəsi, yerləşdirilməsi, kataloqlaşdırma, sənədlərin biblioqrafiyalaşdırılması və s.) əsas texnoloji proseslərin rentabelliyini və effektivliyini təmin edən üsullarının tətbiqi.

4. Kitabxananın təşkilati inkişafı:

-Struktur dəyişikliklər: yeni şöbələrin, bölmələrin,xidmətlərin, müvəqqəti kollektivlərin (komanda) yaradılması; kitabxananın struktur şöbələrinin ənənəvi funksiya və vəzifələrinin dəyişdirilməsi (genişləndirilməsi və ya ləğv olunması)

-Kitabxana işinin planlaşdırılması təcrübəsində dəyişikliklər, strateji planlaşdırma və layihələrin inkişafından istifadə, konsepsiyaların, biznes-planların, sosial layihələrin, strateji planların və inkişaf proqramlarının tərtibi, hazırlanması

-istifadəçi tələb və sorğularının, resursların (imkanların) öyrənilməsi və qiymətləndirilməsi metodikasında dəyişikliklər

-Kitabxananın ictimaiyyətlə əlaqələrinin üsul, metod və vasitələrinin tətbiq və istifadəsində dəyişikliklər (reklam, publicity və public relations, fandreyzinq və s.)

-Kitabxana sərvətinin, ənənələrin, iş prinsiplərinin dəyişdirilməsi

5. İnnovasiya proseslərinin sosial bazası:

- İşçilərin əməyinin və yaradıcı fəallığının stimullaşdırılması sistemində dəyişikliklər: imtiyaz və əlavələrin tətbiqi, işçi heyətin təşəbbüslərinin və maraqlarının stimullaşdırılması vasitələrinin, kitabxanaçıların yaradıcı təşəbbüslərinin öyrənilməsi üsullarının genişləndirilməsi

- Liderlikdə, mexanizmlərin formalaşması təcrübəsində dəyişikliklər, kitabxana (struktur) rəhbərlərinin bacarıqlarının inkişafı, kollektivlə qarşılıqlı əlaqənin formalarının hazırlanma xüsusiyyətləri.

- Kitabxananın təşkilati "mühit"ində olan dəyişikliklər: münaqişələrin qarşısının alınmasının yeni metodları, yüksək ixtisaslı işçilərin işə cəlb olunması, təşkilati davranışın norma və qaydala-rı, ənənələrə və ideallara sadiqlik, təşkilat mədəniyyəti ideyalarının ötürülməsi üçün yeni idarə mərasimlərinin keçirilməsi və s.

- İxtisasın artırılması sistemində dəyişikliklər, əməkdaşların peşəkar inkişafının uçotu, öyrənilməsi və stimullaşdırılmasının yeni forma və vasitələri, liderlik təməlinin formalaşdırılması, kitabxana-nın innovativ potensialının inkişafı.

- kitabxana əməkdaşlarının davranışında dəyişikliklər: qərar-qəbuletmə və təşəbbüskarlığın, təhsilə həvəsin fəallaşdırılması, iş keyfiyyətinin yaxşılaşdırılması (əməkdaşların dövrü mətbuatda, konfrans, seminar, radio və televiziya proqramlarında, iclaslarda, müəssisədaxili tədbirlərdə davamlı çıxışları və s.)

Tanınmış kitabxanaşünasların kitabxananın innovativ fəaliyyətinə həsr olunmuş nəşrlərinin təhlili göstərir ki, maraqlı və eyni zamanda bir-birindən tam fərqli yanaşmalar mövcuddur və vahid bir fikir hələ də tam formalaşmayıb. Bir çox məsələlər, o cümlədən, terminlərin məzmun tamlığında, texnologiyaların və dəyişikliklərin idarə olunması xüsusiyyətlərində, innovasiya prosesinin səmərəliliyinin qiymətləndirilməsi meyarlarında, kitabxanada innovasiyaların təsnifləşdirilməsində hələ də mübahisəli məqamlar vardır. Onu da qeyd etmək lazımdır ki, bu gün kitabxana işində yeniliklər bazarı formalaşdırılmamışdır, ixtisaslaşdırılmış innovasiya təşkilatları demək olar ki, yox səviyyəsindədir, innovasiya münasibətləri sistemi inkişaf etməyib və innovasiya fəaliyyətinin iştirakçıları arasında əlaqə yoxdur, fandreyzinqin imkanları zəif istifadə olunur. İnnovasiyaların inkişafı üçün kitabxanalara innovasiya fəaliyyətinin hərəkətverici infrastrukturunun olması lazımdır. İnnovasiyaların reallaşdırılması üçün dövlət və qeyri-hökümət dəstəyi mütləqdir.[2]

**4.Nəticə**

Kitabxana-innovasiya infrastrukturunun formalaşdırılması kifayət qədər innovasiya potensialı olan böyük kitabxanaların, mədəniyyət universitetlərinin bazasında innovasiya təşkilatlarının yaradılmasını tələb edir. Bu gələcəkdə kitabxanaların innovasiya fəallığının stimullaşdırılmasına yönələn tədbirlərin həyata keçirilməsi və onlara innovativ layihə müsabiqələrinin əsasında qrantların verilməsi və inkişaf proqramlarının dəstəklənməsilə maliyyə yardımı göstərilməsi məqsədi daşıyır. Bu infrastrukturun effektiv elementi kitabxananın ixtisaslaşdırılmış bölmələri, bütün innovasiya dövriyyəsinin kompleks işlərinin yerinə yetirilməsini təmin edə biləcək sərbəst innovativ qurumlar yaradılmalıdır. Beləliklə də, müasir kitabxanaların innovativ fəaliyyətinin əsas şərti innovasiya infrastrukturunun gələcək inkişafı və innovasiya fəaliyyətinin iştirakçıları ilə səmərəli innovativ münasibət və əlaqələrin qurulmasıdır. Bütün bunlar aşağıdakı proseslərin reallaşmasına şərait yaradacaq;[3]

- Yeniliklərin işlənməsinə və innovasiyaların həyata keçirilməsinə vəsaitin cəlb olunmasına;
- İnnovativ işləri əlaqələndirmək və innovasiya məsələlərini birgə həll etməyə;

- İnnovativ layihələrin birgə həyata keçirilməsi üzrə peşəkar əlaqələri genişləndirməyə
- Kitabxananın nailiyyətləri haqqında ictimaiyyəti vaxtaşırı məlumatlandırmağa və s.

Kitabxana işinin inkişafında, təkmilləşdirilməsində, innovasiyaların yeri və rolunun nə qədər əhəmiyyətli olduğunu müəyyən qədər əsaslandırmağa çalışdıq. Sonda bu qənaətə gəlmək olar ki,

- Müasir dövrdə heç bir idarə və ya müəssisə öz fəaliyyətini müxtəlif istiqamətlərdən mütəmadi olaraq təkmilləşdirmədən inkişaf edə bilmir.
- Yeni xidmət və məhsul növlərinin təqdim olunması, innovativ texnologiyaların tətbiqi, iş proseslərinin və işçi heyətin idarəedilməsində müasir metodlardan istifadə edilməsi mütləqdir.
- İnnovasiyalar inkişafın ən vacib elementidir. Onlar olmadan kitabxana sosial əhəmiyyətli təşkilat olaraq qala bilməz, rəqabətə davamlı xidmətlər göstərə bilməz.
- Bazar iqtisadiyyatı şəraitində öz mövqeyini möhkəmlədə bilməz.

Ümumilikdə yenlikçilik, innovativlik yeni məhsul, xidmət və yeni bir dövr olaraq izah edilə bilər. İnnovativ xidmətlər bütün vəzifələrin ən yaxşı şəkildə yerinə yetirilməsi və bunların həyata keçirilməsi üçün lazımi şəraitin təmin edilməsi məqsədilə ənənəvi xidmətlər və məhsullarla yanaşı kreativ və innovativ xidmətləri işləyib hazırlamaq, təkmilləşdirmək və tətbiq etməkdir.

## ƏDƏBİYYAT

1. Abdullayeva, N. D. (2015) *Kitabxana innovatikasının elmi-nəzəri və təcrübi məsələləri:Monoqrafiya*. Bakı, AF Poligraf
2. Abdullayeva, N. D. (2013) *Kitabxana işində innovasiyalar - inkişafın əsas amili kimi.* AMEA Mərkəzi Elmi Kitabxanası, Elmi Əsərlər, Bakı: Proqress, 85-89.
3. Абдуллаева, Н. Д. (2012) *Инновации и новые тенденции в библиотечном деле.* Материалы XVI Международной Научно-практической конференции “Актуальные вопросы современной науки”: Сборник научных трудов, Москва, Издательство «Перо», с. 205-213.
4. Гусева, Е. Н. (2011) Библиотечная инновация. *Вестник библиотек Москвы, № 1.* с. 19-22.
5. Качанова, Е. Ю. (2003) *Инновации в библиотеках: практическое пособие* (Е. Ю. Качанова; науч. ред. В. А. Минкина). С.-Петерб. гос. ун-т культуры и искусств, СПб.: Профессия

**6.** Качанова, Е. Ю. (2002) Классификационный анализ в изучении и управлении инновационной деятельностью библиотек. *Научные и технические библиотеки, № 10,* с.5-24.
**7.** Лапшакова, В. (2008) *Библиотечные инновации: виды инновационных продуктов,* 2008. Режим доступа: http://innovaciya.blogspot.com
**8.** Толканюк, Н. А. (1995) *Инновационные процессы в библиотечном деле.* Культура и общество: Возникновение новой парадигмы, Кемеров. гос. акад. культуры и искусств, с.189-192.

## Типология, классификация и будущие перспективы библиотечных инноваций

**Нармина Абдуллаева***

**Абстракт.** В настоящее время ни одна организация не развивается без постоянного совершенствования различных сторон своей деятельности: предоставления новых услуг или продукции, использования инновационных технологий и современных методов управления деятельностью и персоналом. Инновации - это необходимый элемент развития: без них библиотекам невозможно оставаться социально значимыми организациями, оказывать конкурентоспособные услуги, укреплять свои позиции в условиях рынка. В данном статье рассматривается классификационный анализ библиотечных инноваций, их характерные свойства.

**Ключевые слова:** виды и типы библиотечных инноваций, классификационный анализ, факторы, влияющие на инновационный деятельность библиотеки

## Typology, classification and future perspectives of the library innovations

**Narmina Abdullayeva***

---

* Институт Рукописей им. Физули НАНА, докторант,
АГУЭ (UNEC), заведующий библиотеки №3; Баку, Азербайджан
E-mail: abdullaevanarmina@gmail.com
https://orcid.org/0000-0001-5191-0870

**Цитировать статью:** Абдуллаева, Н. [2023]. Типология, классификация и будущие перспективы библиотечных инноваций. *Журнал «Metafizika». 6(2),* с.83-95.

**История статьи:**
*Статья поступила в редакцию: 01.05.2023*
*Отправлена на доработку: 02.06.2023*
*Принята для печати: 06.06.2023*

* PhD candidate in the Institute of Manuscripts n.a.M.Fuzuli, ANAS,
UNEC, Library İnformation Center, Head of library №3; Baku, Azerbaijan
E-mail: abdullaevanarmina@gmail.com
https://orcid.org/0000-0001-5191-0870

**Abstract.** At present, no organization does not develop without the continuous improvement of various aspects of its activity: the provision of new services or products, the use of innovative technologies and modern methods of organization and personnel management. Innovations - it is a necessary element of development: without them it is impossible to remain libraries socially relevant organizations, to provide competitive services, to strengthen its position in the marketplace. This article deals with the classification analysis of library innovations, types and their characteristic properties.

**Keywords*:*** types and styles of library innovation, classification analysis, the factors influencing the innovation activities of the library

## REFERENCES

1. Abdullayeva, N. D. (2015) *Scientific-theoretical and practical issues of library innovation: Monograph*. Baku, AF Polygraph.
2. Abdullayeva, N. D. (2013) *Innovations in library work - as the main factor of development.* ANAS Central Scientific Library, Scientific Works, Baku: Progress, 85-89.
3. Abdullaeva, N. D. (2012) *Innovations and new trends in library work.* Materials of the XVI International Scientific and Practical Conference “Actual issues of modern science”: Collection of scientific works, Moscow, Izdatelstvo “Pero”, p.205-213.
4. Guseva, E. N. (2011) *Library innovation.* Vestnik bibliotek Moskvy, No. 1. p.19-22.
5. Kachanova, E. Yu. (2003) *Innovations in libraries: practical guide* (E. Yu. Kachanova; scientific editor. V. A. Minkina). St.-Peterb. Gos. University of Culture and Arts, St. Petersburg: Profession
6. Kachanova, E. Yu. (2002) Classification analysis in the study and management of innovative activities of libraries. *Scientific and technical libraries, No. 10*, p.5-24.
7. Lapshakova, V. (2008) Library innovations: types of innovative products. Access: http://innovaciya.blogspot.com
8. Tolkanyuk, H. A. (1995) *Innovative processes in the library business.* Culture and society: the emergence of a new paradigm, Kemerov. Gov. Acad. culture and art, pp.189-192.

**To cite this article:** Abdullayeva, N. [2023]. Typology, classification and future perspectives of the library innovations. *“Metafizika” journal. 6(2)*, pp.83-95.

**Article history:**
*Received: 01.05.2023*
*Accepted: 06.06.2023*